**Sərxan İsaq oğlu Məmmədov**

**UOT:332.122; JEL:R10.**

# Regionların sosial-iqtisadi inkişafının təkmilləşdirilməsi məsələləri

***Xülasə***

*Məqalədə regional inkişafın dövlət tənzimlənməsi amilləri tədqiq edilmiş, regionların inkişaf potensialının reallaşmasında sahibkarlığın inkişaf məsələlərinə baxılmışdır. Həmçinin sahibkarlığın inkişafı üçün investisiyaların cəlb edilməsi istiqamətləri araşdırılmış, regional inkişafının dövlət tənzimlənməsi məsələləri tədqiq edilmişdir.*

***Açar sözlər:*** *regional inkişaf, dövlət tənzimlənməsi, sahibkarlıq, idarəetmə, struktur amillər*

## Giriş

Son illər bazar iqtisadiyyatı şəraitində və onun prinsiplərinin mənimsənilməsində səmərəli addımlar atılmışdır və hazırda bu istqamətdə böyük əhəmiyyət kəsb edən tədbirlər görülməkdədir. Müstəqillik əldə etdikdən sonra uzun müddət ərzində formalaşmış ölkə iqtisadiyyatında köklü iqtisadi islahatlar aparılması zərurəti ilə üzləşmişdir. İslahatların əsas məqsədlərindən biri də regional problemlərin, o cümlədən regional inkişafın dövlət tənzimlənməsi problemi və onun səmərəli mexanizminin işlənib hazırlanması olmuşdur.

## Əsas mətn

Regional inkişaf və ərzaq təhlükəsizliyi problemlərinin həlli məsələləri Azərbaycan dövlətinin həmişə diqqət mərkəzində olmuşdur. Təkcə onu qeyd etmək kifayətdir ki, müstəqilliyimiz dövründə ardıcıl olaraq 2004, 2009 və 2014-cü illərdə hər biri 5 il müddəti əhatə edən Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları, 2001-ci ildə “Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı”, 2008-ci ildə “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı” qəbul edilmişdir. Proqramların reallaşdırılması regionların inkişafına, əhalinin ərzaqla təminatına və bütövlükdə ölkə iqtisadiyyatının dayanıqlı inkişafına çox ciddi təkan vermişdir. Lakin bu sahədə yeni tələblər baxımından həlli heç də asan olmayan və elmi araşdırmalar tələb edən çətinliklər də mövcuddur. Lakin ölkənin milli, sosial-iqtisadi siyasəti və digər xüsusiyyətlərini nəzərə alaraq regional inkişafın tənzimlənməsi, onun normativ hüquqi bazası və iqtisadi mexanizminin təkmilləşdirilməsi sahəsində problemlərin həllinə ciddi fikir verilməlidir. Regional inkişafın dövlət tənzimlənməsi amilləri dövlət regional siyasətinin konstruktiv məzmunlu ifadəsidir. Regional inkişafın dövlət tənzimlənməsinin ölkədə və onun tərkib hissələrinə tətbiqi və istifadə edilməsinin əsas şərtlərindən ən mühümü ölkədə regionlaşdırmanın aparılması və elmi əsaslandırılmış regional şəbəkənin hazırlanmasıdır.

Sahibkarlığın regional inkişafı potensialının reallaşdırılması bu mərhələnin prioritet vəzifələrindəndir. Bu bir tərəfdən isə regionlarda ənənəvi sahələrdə sahibkarlığın bərpası və inkişafı, digər tərəfdən isə yerli resurslardan səmərəli istifadə əsasında yeni istehsal və xidmət sahələrinin yaradılması istiqamətində həyata keçirilməlidir. Bu baxımdan regionlara investisiyanın cəlb edilməsinin sahibkarlığın inkişafının təşviqi mexanizmlərinin təkminləşdirilməsi, iqtisadiyyatın normal inkişafı üçün ümumi iqtisadi şəraitin təmin edilməsi baxımından infrastrukturun yenidənqurulması prosesin sürətləndirilməsi, xüsusilə önəmlidir. Regionun inkişafına şərait yaradaraq, yeni texnologiya tətbiq etmək, ixrac yönümlü məhsul



©Sərxan İsaq oğlu Məmmədov AMEA İqtisadiyyat İnstitutu, dissertant
©AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

istehsalını artırmaq, yeni idarəetmə formalarını tətbiq etmək üçün, kapitala təsir göstərilməsini əsas mikro aləti kimi subsidiya, investisiya qrantı və məqsədli kreditlər istifadə olunur.

Bazar münasibətləri şəraitində fəaliyyət göstərən ölkələrin təcrübəsi göstərir ki, regional inkişafa müdaxilə ən vacib sahədir. İqtisadi islahatların həyata keçirilməsi prosesində, regional inkişafın dövlət tənzimlənməsinin əsas vəzifəsi onun bütün təbii və digər ehtiyatlarının hazırda iqtisadi cəhətdən, xüsusilə sənayecə zəif inkişaf etmiş rayonlara yönəldilməsindən ibarət olmalıdır. Ümumiyyətlə ölkənin regional inkişafı ilk növbədə qabaqcıl ölkələrin təcrübələrinə uyğun gələn kompleks sosial-iqtisadi inkişaf prinsiplərinə əməl olunmasından asılıdır. Regional inkişafın dövlət tənzimlənməsinin birbaşa metodlarından biri də mühüm əhəmiyyətli məqsədli regional proqramların hazırlanıb həyata keçirilməsi, xüsusi təyinatlı büdcə fondlarının yaradılması və müəyyənləşdirilməsidir [1].

Sahibkarlığın region xüsusiyyətlərinə uyğun təşkili regionun iqtisadi inkişafına şərait yaradır. Bu istiqamət də sahibkarlığa əsasən aşağıdakı kimi yanaşmaq olar: Sahibkarlığın iqtisadi obyekt və təsərrüfat fəaliyyətidir, sahibkarlıq maddi və sosial rifahın formalaşması və artım amilidir,sahibkarlıq makro və mikrosəviyyəli idarəetmə və struktur dəyişmə amilidir. Sahibkarlığa təşkilati iqtisadi idarəetmə strukturu kimi baxılır və sahibkarlığın idarəetmə aspektləri müəyyən olunur. İdarəetmə aspektində sahibkarlığın təsərrüfat əlaqələr, menecment idarəçiliyi, marketinq fəaliyyəti və sahibkarlıq strukturu ilə istehlak seqmentləri arasında qarşılıqlı əlaqə müəyyən olunur. Bazar iqtisadiyyatı şəraitində mühüm əhəmiyyətə malik olan regional tənzimlənmə alətləri universallıq dərəcəsinin və təsirinin genişliyinə görə iki qrupa bölünür: ümumi iqtisadi təsir vasitələri və ya metodları, yaxud da makro vasitələr və ünvanlı təsir vasitələri və ya mikro alətlər, regional siyasətin mikro alətləri. Həmçinin təcrübə göstərir ki, regional inkişaf tənzimlənməsinin iki iqtisadi metodundan istifadə olunur. birbaşa iqtisadi təsir metodları, yəni kredit və vergi sistemləri, qeyri-büdcə vəsaitləri, o cümlədən amortizasiya ayırmaları hesabına, dolayı iqtisadi təsir vasitələridir ki, bunlar yeni texnika tətbiq etmək, ixrac yönümlü məhsul istehsalını artırmaq, subsidiya, investisiya qrantı kimi məqsədli kreditlərdir.



Sahibkarlığın inkişafının nəzəri əsaslarının formalaşması məhsuldar qüvvələrin regional inkişaf və ixtisaslaşma səviyyəsi təsir edir. Regional aspektdə sahibkarlığı inkişafına təsərrüfatçılıq fəaliyyəti və regionun sosial inkişafı aspektindən baxmaq vacibdir. Regionun təbii resursları formalaşdırılmış məhsuldar qüvvələrdən və işçi qüvvəsindən səmərəli istifadə yolu ilə bazar tələbatına uyğun istehsal və xidmət sahələrinin inkişaf həcminin hər bir sahəsinin yerləşdiyi ərazidə yerli əhalinin tələbat strukturu və resurslardan maksimal istifadə meyarları əsasdır.

Əhali gəlirlərinin artımı regionlarda fərdi istehsal və kollektiv təsərrü-fatçılıq formalarının inkişafına səbəb olur. Respublikamızın regionlarında kənd təsərrüfatı resurslarının özəlləşdirilməsi və torpaq üzərində müxtəlif mülkiyyət formalarının yaranması gəlirlərin artımına və həyat səviyyəsinin yüksəlməsinə səbəb olur. Tələbatın olması, istehsalın resurs təminatı, onun maliyyə və maddi imkanları və s. sahibkarlığın zəruri şərtlərini təşkil edir. Maddi imkanlar və pul gəlirlərinin istehsal yönümlü xərclərə yönəldilməsi alıcılıq qabiliyyətini artırır və təklifi formalaşdırır. Bu istiqamətdə əhalinin resursları ilə yanaşı dövlətin maliyyə, kredit resursları təsərrüfat dövriyyəsinə cəlb etməklə tənzimləmə siyasəti həyata keçirilir. Beləliklə sahibkarlığın region ərazisində inkişafı üçün həmin regionun potensial imkanlarının istifadəsi üçün maliyyə imkanlarını artırmaq labütdür. Regionlarda sahibkarlığın inkişafına nail olunması ölkədaxili rayonlarda mövcud olan potensialdan tam və səmərəli istifadə edilməsini, onların sosial-iqtisadi səviyyəsinin yüksəldilməsini və tarazlaşdırılmasını da nəzərdə tutur. Ölkə iqtisadiyyatında makroiqtisadi sabitlik bərqərar olmuş, inkişafın regionlar səviyyəsinə keçirilməsi zərurəti yaranmışdır. Görülmüş tədbirlər rayonda sahibkarlığın inkişafına təkan vermişdir. Kiçik və orta sahibkarlığın rayonların iqtisadiyyatında rolu getdikcə artmağa başlayır.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Kiçik və orta sahibkarlıq sektoru əhalinin məşğulluğunun təmin edilməsində hiss ediləcək səviyyədə rol oynamağa başlamışdır. Dövlət Proqramları hazırda sahibkarlığın bu prioritet istiqamətinin reallaşması baxımından kompleks tədbirləri əhatə edir. Əlverişli sahibkarlıq mühitinin təmin edilməsi istiqamətləri regional inkişafla əlaqələndirilmiş və bu tədbirlərin həyata keçirilməsində prioritet istiqamət kimi nəzərə alınır.

Region iqtisadiyyatının təkmilləşdirilməsi həmin ərazinin təbii resurslarının, iş qüvvəsinin, coğrafi iqtisadi mövqeyinin, formalaşmış iqtisadi potensialının təsərrüfat dövriyyəsinə cəlb olunması səmərəlilik variantları ilə təmin olunur. Təbii resurslar, həmçinin xammal və mineral resursların, yeraltı sərvətlərin kəşfiyyatı, istehsalı əmək tutumlu və kapital tutumlu sahə kimi regiona investisiya gətirilməsinə şərait yaradır. Respublikanın təbii sərvətlərinin region quruluşu, onların emalı məhsuldar qüvvələrin regionlar üzrə inkişaf strukturunu müəyyən edir [2]. Təbii resursların məqsədyönlü istifadəsi yeni iş yerlərinin açılmasına və əmtəə - xidmət bazarların istehlak malları ilə zənginləşməsinə şərait yaradır. Region üzrə istehsal proqramları, təbii-yerli resursların hesabına üçüz əmtəə və xidmət istehsalına nail olunur. Regionlar biznes və sahibkarlığı inkişaf etdirmək üçün prespektiv inkişaf istiqamətlərində təbii resurslardan istifadə edib, onun reallaşması üçün uzunmüddətli kreditləşmə sərvətlərini müəyyənləşdirməlidir. Sahibkarlığın yerli təbii çoğrafi şəraiti, onların istifadəsi üçün yaradılan iqtisadi-təşkilati təsərrüfatçılıq fəaliyyəti regional sosial - iqtisadi mövqeyindən əlaqəli elmi təhlili və fəaliyyət modeli bazarın təşkilati-iqtisadi idarəetmə strukturudur. Regional iqtisadiyyatın sahibkarlıqla əlaqəsinin tənzimlənməsi aşağıdakı istiqamətləri mövcuddur:

- Sahibkarlığın dinamikasının ərazi sahə quruluşu, təşkilati idarəetmə səmərəliliyi mövqeyindən inkişafı;
- Sahibkarlığın region və ölkə iqtisadi inkişafında rolunu nəzərə almaqla onun prioritet istiqamətlərinin əsaslandırılması, funksional təyinatı və istehlak seqmentləri üzrə təşkilatlandırılması;
- Sahibkarlığın inkişafında kompleks amillər və mexanizmlər, dövlətin sahibkarlığa köməyi, sahibkarlığın infrastrukturu, sahibkarın özünün vəzifələri, sahibkarlığın təşkilati idarəetmə strukturu təkmilləşdirilmişdir.

Sahibkarlığın Azərbaycanda formalaşması və inkişafı sistemli şəkildə aparılmalıdır. Hər bir sistem müxtəlif elementlər, müəyyən qanunlar və prinsiplər əsasında formalaşdığı kimi sahibkarlıqda ümumi və regional elementlərin inteqrasiyasından təşkil olunur. Yalnız bu halda sahibkarlıq daha səmərəli fəaliyyət göstərə bilər. Sahibkarlığın respublika şəraitinə uyğun olan ideal strukturunu, modelini düzəltmək və həmin modelin tədricən reallaşdırılması məqsədəuyğun olardı. Yerli tələbatı ilə az bağlı olan əksər xammal və materialları yaxın xaricdən gətirən müəssisələrin əksəriyyətinin fəaliyyətinin dayanmasıdır. Belə bir şəraitdən çıxış yolu respublikanın regionlarında olan zəngin təbii mineral xammalları və kənd təsərrüfatı məhsullarının tam emalını, yaradılması və ilkin mərhələdə daxili bazarın tələbatının ödənilməsinə istiqamətləndirilməsidir. Sahibkarlığın regional inkişafının səmərəli təşkili üçün geniş informasiya toplamaq və onların elmi təhlilini aparmaq lazımdır. Belə xarakterli informasiya bankına regionlar haqqında aşağıdakıları daxil etmək olar:

- Regionun nəqliyyat - coğrafi mövqeyinin əlverişliyi;
- Torpaq - iqlim şəraiti, faydalı qazıntıların növbəli istismara cəlb edilməsinin texniki - iqtisadi əsaslandırılması;
- Regionların əhalisinin demoqrafik, məskunlaşma, əmək ehtiyatları və kadr potensialı, şəhərlər, kəndlər qrupları və onların inkişaf şəraiti, təsərrüfatın müasir strukturu,



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

ixtisaslaşması, mövcud müəssisələrin yenidən qurulma-imкanları regionda nəqliyyat-infrastruкtur sahələrinin növləri, potensial imкanları;

- Regionlarda fəaliyyət göstərən müəssisələrin inкişafının iqtisadi-coğrafi təhlili və xəritələşdirilməsi.

Mədəni və elmi əsasları olan xüsusi sahibкarlığın inкişafı eкoloji şəraitin, yaxşılaşdırılmasına hərtərəfli müsbət təsir göstərəcəкdir. Bunun inкişaf etmiş qabaqcıl ölкələrin təcrübəsi sübut edir. Məhsuldar qüvvələrin regionlar arasında qeyri-mütənasib paylanması ilə əlaqədar olaraq, sosial-iqtisadi inкişaf səviyyəsinə görə regionlar arasında кəsкin fərqlər yaranmışdır. Regionlarda sahibкarlığın inкişafının, investisiyaların təşviqinin optimal və davamlı mexanizminin formalaşması da zəruridir. Regionlarda sosial, o cümlədən əhalinin həyat səviyyəsinin yüksəldilməsi problemləri davamlı diqqət mərkəzində saxlanılmalıdır. Ölкədə iqtisadi islahatlar dərinləşdiкcə və sahibкarların müasir tipli bazar struкturları formalaşdıqca yeni dövrün tələblərinə uyğun olaraq regionlarda sahibкarlığın inкişafına dövlət кöməyilə bağlı davamlı tədbirlər həyata кeçirilməlidir. Regional siyasətin bazar iqtisadi sisteminə uyğunlaşdırılması zəruridir. Regionlarda sahibкarlığın inкişafı regional inкişafın başlıca məsələsi olsa da, bu prosesin tərкib hissələrindən biridir. Bu səbəbdən yalnız regional inкişaf siyasətinin əsas hədəfləri açıqlanmaqla sahibкarlığın inкişafının ümumi istiqamətləri müəyyənləşdirilə bilər. Region səviyyəsində KOS-un inкişafına məsul olan orqanların səlahiyyət və məsuliyyətisərt şəкildə təsbit olunmalı və bunun həyata кeçirilməsi zərurətə çevrilməlidir. Sahibкarlığın regional mənкəzləri regional inкişafın əsas daşıyıcısına və ya daşıyıcısından birinə çevrilməlidir.



**Cədvəl 1.**

**Azərbaycan Respublikasında kənd təsərrüfatının ümumi məhsulu və bu sahə üzrə əsas kapitala yönəldilmiş investisiyalar (mln. manat)**

| | Sahə üzrə yönəldilmiş investisiyalar | Kənd təsərrüfatının ümumi məhsulu |
|---|---|---|
| **2011** | 437,3 | 4525,2 |
| **2012** | 648,8 | 4844,6 |
| **2013** | 574,3 | 5244,6 |
| **2014** | 363,9 | 5225,8 |
| **2015** | 355,4 | 5635,3 |
| **2018** | 365,2 | 5734,9 |

Mənbə : www.stat.gov.az

Son llər üzrə kənd təsərüfatı sahəsinə yönəldilmiş investisiya qoyuluşlarına baxsaq görərik ki, 2011-ci ildə 437,3 mln. manat , 2013-cü ildə 574,3 mln. manat, 2015-ci ildə 355,4 mln. manat, 2018-ci ildə isə 365,2 mln.manat bu sahəyə investisiya qoyuluşu həyata keçirilmişdir. 2011-ci illə müqayisədə 2015-ci ildə investisiya qoyuluşlarının həcmi 1,2 dəfə azalaraq 355,4 mln. manat təşkil etmişdir. 2014-cü illə müqayisədə 2015-ci ildə kənd təsərrüfatında ümumi məhsul istehsalı faktiki qiymətlərlə 1,1 dəfə artaraq 5365,3 mln. manat təşkil etmişdir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Cədvəl 2.**

**Azərbaycan Respublikasında taxıl istehsalı**

| | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2018 |
|---|---|---|---|---|---|---|
| **Azərbaycan Respublikasında taxıl istehsaı (min ton )** | 2395 | 2732 | 2881 | 2322 | 2923 | 3015 |
| **Ölkədə adambaşına düşən taxıl məhsulu ( kq.)** | 265 | 298 | 310 | 247 | 307 | 308 |

Mənbə : www.stat.gov.az

Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin olunmasında böyük rol oynayan taxıl məhsullarının istehsalı 2011-ci illə müqayisədə 2015-ci ildə 1,2 dəfə artaraq 2923 min ton, ölkəmizdə adambaşına düşən taxıl istehsalı isə 1,1 dəfə artaraq 307 min ton olmuşdur. İdxalı əvəzləyən və ixrac yönümlü istehsallar baxımından regionlar bu və ya digər dərəcədə rəqabətə cəlb olunmuşlar və həmin proses tədricən güclənəcəkdir. Digər tərəfdən isə, resursların regiona yönəldilməsi baxımından iqtisadi məqsədəuyğunluq və buna uyğun sürətdə respublika iqtisadiyyatının rəqabət qabiliyyətinin gücləndirilməsi prioritet məsələ olmalı və bu əsasda regionların seçilməsi daha məqsədəuyğundur.

Respublikamızda sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə iqtisadi islahatlardan irəli gələn meyar kimi də baxmaq lazımdır. Ölkənin sahibkarlıq fəaliyyətinin rəqabət qabiliyyəti və effektivlik bazasında inkişaf etməsi, səmərəlilik baxımından inteqrasiya və təsərrüfat əlaqələri əsasında ixtisaslaşması, əhalinin tələbatının ödənilməsində xüsusi çəkiyə malik olması və əmək ehtiyaclarından sosial effekt koteksində istifadənin müasir dövrdə dövlətin köməyi və nəzarəti olmadan həlli çətindir. Belə ki, bəzi problemlər vardır ki. onların da həllini sürətləndirmək lazımdır. O, cümlədən: yerli büdcələr hesabına kiçik və orta sahibkarlığın intensiv sürətləndirilməsi, yerli xammalla işləyən emal müəssisələri və xammal sahələrinin regionlarda inkişafını təmin etmək, kiçik və orta sahibkarlığın fəaliyyətinin regionun resurslarının ərazi üzrə yeniləşdirilməsi, ehtiyatların ərazi xüsusiyyətlərini nəzərə alaraq və bazar tələbatına uyğun inkişafının sürətləndirilməsi, maliyyə-kredit, investisiya və vergi siyasətində sahibkarlıq fəaliyyətinin inkişafını təmin edən prinsinlər sabit deyil, daim dəyişən xarakterə malik olmasını həyata keçirmək, milli sahibkarlıq fəaliyyətini daha da genişləndirmək məqsədilə rayonların servis xidmətlərinin yaradılması və bazar infrastrukturlarının rolunun daha da artırılması.

**Nəticə**

Regionların inkişafı baxımından bu kimi tədbirlərə diqqətin bir qədər də artırılması zəruridir: regionlarda sahibkarlığın inkişafının, investisiyaların təşfiqinin optimal və davamlı mexanizminin formalaşdırılması, bazar infrastrukturunun, o cumlədən biznesə xidmət, ipoteka, maliyyə- kredit, sığorta, lizinq, marketinq, konsaltinq və s. xidmət sahələrinin formalaşdırılması və inkişafı, regionlarda mövcud olan təbii-iqtisadi potensialdan tam və səmərəli istifadə olunması üçün şərait yaradılması, istehsal-texniki və elmi-texniki potensialın modernləşdirilməsi, innovasiya prosesinin sürətləndirilməsi və inkişaf etdirilməsi, regionların potensial imkanları, ölkədaxili və beynəlxalq əmək bölgüsündəki üstünlüklərindən tam və səmərəli istifadə olunması.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

## Ədəbiyyat

1. Abbasov V.H, Verdiyev Ə.Ç, ASK: bazar iqtisadi münasibətləri şəraitində inteqrasiya əlaqələrinin tənzimlənməsi, Bakı, Elm nəşriyyatı, 1996.
2. Alıyev İ.H., Milli İqtisadiyyat və Aqrar Sahənin İnkişaf Problemləri, Bakı, Elm, 2006.
3. Alıyev İ.H. Qloballaşma şəraitində aqrar sahənin dayanıqlı inkişafının təmin olunmasının sosial-iqtisadi problemləri, Bakı, Elm, 2008.
4. Allahverdiyev Ə.Q., Bazar iqtisadiyyatmın təşəkkül prosesində makroiqtisadi dinamik və struktur dəyişikliklərinin tənzimlənməsi probiemləri. Bakı, Elm, 2001.
5. Əhmədov İ.V., Kənd təsərrüfatının idarə edilməsi, Bakı, Ozan, 2006.
6. Əhmədov M.A., Qloballaşma və milli iqtisadiyyatm formalaşması. Bakı: Elm, 2003.
7. İbrahimov İ.H. Aqrar islahatın təşkilati-iqtisadi mexanizmi. Bakı: Azərnəşr, 2012.

***Сархан Исаг оглу Мамедов***

***Вопросы улучшения социально-экономического развития регионов***

***Резюме***



*В статье исследованы факторы государственного регулирования регионального развития, рассмотрены вопросы развития предпринимательства в реализации потенциала развития регионов. Также были изучены направления привлечения инвестиций для развития предпринимательства, изучены вопросы государственного регулирования регионального развития.*

***Ключевые слова:*** *региональное развитие, государственное регулирование, предпринимательство, управление, структурные факторы*

***Sarxan Isag Mammadov***

***Issues of improvement of socio-economic development of Regions***

***Summary***

*The article examines the factors of state regulation of regional development, the issues of entrepreneurship development in the region's development potential. Also, the directions of attracting investments for the development of entrepreneurship were investigated, the issues of state regulation of regional development were investigated.*

***Keywords:*** *regional development, state regulation, entrepreneurship, management, structural factors*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub:17.06.2019.***
***Çapa qəbul olunub:20.06.2019.***

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*